# ODDAN KEÇMƏYİN YANĞISI,

## yaxud şair Rafiq Musanın "Od içindən keçən yol" poemasının birinci hissəsi üzərində düşüncələr



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

"Od" Azərbaycan ədəbiyyatında həmişə diqqətdə olan, çox işlənən obrazdır. Lap klassik ədəbiyyatımızda da, müasir bədii sənətimizdə də od sənətkarların dilinin əzbəri olub. Bəlkə də, müəlliflər daxili-mənəvi iztirablarını dövrlə, zamanla bağlı yaşadıqları etiraz hisslərini daxili yanma kimi qəbul ediblər. Həqiqətən də insan iztirab çəkəndə, həsrətlərə düçar olanda sanki yanır, həyatla bağlı düşüncələrini sözə gətirəndə bu zaman "yanıram" deyə fikirlərini ifadə edirlər. Düşünürəm ki, Əli Rza Xələflinin həyatı Rafiq Musa yaadıcılığında təsadüfi yer almayıb. Ə.R.Xələflinin məşhur "Od" romanı var. Həmin əsəri də mən çap etmişəm. Yadıma gəlir, o vaxtda biz bu ad üzərində xeyli düşündük. Çünki həmin əsər hissə-hissə "Kredo" qəzetində başqa ad altında nəşr olunurdu. Amma nəticədə əsərin mahiyyəti gəlib odla bağlandığı üçün əsərə də elə həmin adı verdik.

R.Musa "od içindən keçən yol" poemasına ad seçərkən yəqin ki, onun düşüncə axarından "Od" əsərinin məzmunu ilə bağlı bəzi məqamlar da müəyyən təəssürat yaradıb. Çünki "Od" romanında müəllifin həyatı müəyyən dərəcədə əks olunub. Şair R.Musa qələm dostunun ən azı son bir qərinəlik dövrünü gözünün önündən keçirib. İnsan yerindən-yurdundan əli çıxırsa, doğulduğu torpağa yaxın gedə bilmirsə və bunun həsrətini çəkirsə, demək, elə odun içinə düşmüş olur.

Beləliklə, R.Musa od içində yanın dostunun taleyini "Od içindən keçən yol" poemasında kifayət qədər hissi-emosional duyğularla verə bilib. Əlbəttə, biz əsərin birinci hissəsindən söhbət açırıq. Şair əvvəlcə mövzuya yaxınlaşa biləcək qədər məsafədə olsa da yaşadığı yaradıcılıq iztirablarını sözə çəkir və bununla da sanki qarşıdakı maneələri təmizləyir. Bunun üçün gecənin, gündüzün arasındakı vaxt axarında onu sıxan tərəddüdləri, iztirabları sözə gətirir. Və bu sözəgətirmələr əslində, oxucunun əsərlə təmas yaratmasına xidmət edən bir körpüdür:

Axşama yaxındı, şər qarışıbdı,
Evdəyəm, uzağam çölün səsindən.
Baxıram dünyanın yaxşı-pisinə
"Mobil" telefonun pəncərəsindən.

Dünyanın nizamı yaman pozulub,
Bilən yox, bu dərdi necə çəkirəm?
Gündüzlər bir elə vaxtım olmayır,
Bütün ağrıları gecə çəkirəm.

Təbiət bir yana, cəmiyyətdə də,
Nə qədər qan töküb edərlər günah.
Haqqa-ədalətə yiyə duran yox,
Bəlkə üz döndərib bizlərdən Allah.

Dünyanı nə yaman günə qoyublar,
Hər kəsin öz işi, öz dərdi-səri.
Görürəm ağlıma gələnləri mən,
Bəzən də ağlıma gəlməyənləri.

Bu dünya binədən elə belədi,
Bir gözü ağlayır, bir gözü gülür.
Haqqını axtarır haqlı olanlar,
Haqsızlar dünyanı yenidən bölür.

Ümumiyyətlə şairlər siyasətçilərdən fərqli olaraq cəmiyyətin mənəvi tarazlığına öz hissləri, emosional duyğuları ilə yardımçı olmağa çalışırlar. Şair üçün olumla ölümün arasındakı məsafə bu tarazlıq uğrunda mübarizədən ibarətdir. Çünki şair həyatı başa düşəndən, zamanı qavrayandan hiss edir ki, qanunlar ədalətə səsləsə də, çox vaxt qanunları görməzdən keçənlər ədalətsizliyə rəvac verirlər. Ədalətsizlik isə insanların təkcə haqlarını tapdamır, həm də onları mənən əzir. Şair çox yaxşı görür ki, mənəviyyat qatilləri heç də müharibə qatillərindən az cinayətkar deyil:

Haqqa-ədalətə qarşı çıxanlar
Yenə öz fikrində, xislətindədi.
Dünyanın özünün taleyi belə
"Olumla", "ölümün" sərhəddindədi.

Namərdin əlləri qan içindədi,
Alçağa-yaltağa yedəklik edir.
Göz yaşı içində, başı alovlu
Görəsən, bu dünya hayana gedir?!

Qeyrəti-vicdanı olmayan kəslər
Dünyanı bölüşmək həvəsindədi.
Bugünkü dünyanın arzu-istəyi
Qaçqının-köçkünün naləsindədi.

"Mən səni sevəcəm, sən sevməsən də",
Nə çox "malaladıq" düşməni-yadı.
Hər yerdə "köhnəlir" milli dəyərlər,
Əyrilər, oğrular "reklam"lardadı.

Zalımın hər yerdə sözü keçərli,
Onun əməlləri özündən betər.
Köhnə yaraları qaysaqlanmamış
Dünyanı yenidən bölüşmək yetər.

Son yüz ilin çərisində insan nəsli iki dəfə dünya müharibəsi görüb. İki dünya müharibəsi yüz milyonlarla insanın faciəsi bahasına başa gəlib. Əlbəttə, müharibədən güllə dəyərək ölənlərdən savayı, məhz müharibənin fəsadlarından həyatlarını itirənlər saya-hesaba gəlmir. Elə ona görə də mən iki dünya müharibəsindəki itkilərin hesabını yüz milyonlarla deyərək çəkirəm.

Çətin zəmanədir. Bu günün özündə də zorlular, güclülər, yəni daha öldürücü silaha sahib olanlar dünyanı silkələməkdədir. Şair bunun günahını cəmiyyətin özü ilə bağlayır. Çünki haqsızı, savadsızı, mənəviyyatsızı nələrinsə xatirinə başa çəkirik. Bu da son nəticədə cəmiyyətin özünün həyatına zərbə vuran amilə çevrilir. Elə şair özü daha doğru deyir:

Zalımı dartaraq çəkirik başa,
Tanrı da dizləri gözündən salır.
Zalımlar, bu qədər harınlaşıbsa
Ümidlər yenə də Allaha qalır.

Dünyada baş verən haqsızlıqlara
Bəzən "yaxşılar" da göz yumur, Allah!
Bu gündən sabaha varmı etibar?!
Hər addım başında çəkiriksə ah!

Birləşin, hər zaman güc birlikdədi,
Sülhsevər insanlar, ayağa durun.
Dünyanı yerinə qaytarmaq üçün
Çəkici zindana birlikdə vurun.

Bu qədər haqsızlıq olarmı? - Yetər!
Bax budur sözümün son "əl-qərəzi".
Gəlsin İsa Məsih, çox gecikməsin,
Qurulsun hər yerdə mizan-tərəzi.

Dünyada baş verən haqsızlıqları
Hərdən istəyirəm bir az unudum.
"Yutub"dan "vatsap"a keçid alıram,
Əziz dostlarımdan bir xəbər tutum.

Məhz bu yerdə şair yaşadığı mənəvi iztirabları, dərdləri bölmək üçün həmdəm axtarır. Onunla danışmaq, dilləşmək istəyir. İndiki dövrümüzdə yüz min kilometrlərlə məsafədən insanlar bir-birilə ünsiyyət qura bilirlər, canlı əlaqələr yaradırlar, bir-birini görür, fikir bölüşür, ən təzadlı məsələlərin barışdırıcı tərəflərini axtarırlar. R.Musa da beləcə müasir sosial şəbəkə terminlərindən istifadə edərək oxucusuna çatdırır ki, o, qəlbinə munis ola biləcək bir həmdərd axtarışındadır. Youtubdan, Fb-dən Vatsapdan keçir və bu zaman qarşısına keçmiş tələbəlik dostu Əli Rza Xələfli çıxır.

Əlbəttə, o, Əli Rza Xələflinin tələbəlikdən sonrakı həyatının Qarabağın işğalından bəriki dövrünü dostunun naşiri olduğu "Kredo" qəzetindən öyrənib. Bu qəzetin hər yeni sayı dostunun təzə bir əsəri ilə onu mükafatlandırır. Dostunun yaradıcılığını sevgi ilə izləyir. Hətta onun canlı ekrandan gördüyü baxışlarında da məna axtarır. Bununla da ünsiyyət sıxlaşır, başqa sözlə, dostların arasında qırılmaz mənəvi bağlılıq yaranır:

Elə ki "vatsap"a keçid elədim,
Qarşıma Əli Rza Xələfli "çıxdı".
Sanki "axşamınız xeyir" söyləyib,
Ekrandan əl verib əlimi sıxdı.

Şairin gülümsər baxışlarından
Sanki söyləyirdi:-Axşamın xeyir!
İndi xatırladım, yadıma düşdü,
Onun uğuruna yazdığım şeir.

Bir anlıq dünənə apardı xəyal,
Demişdi:- Sabahdan çıxırıq yola.
Mən də öz şerimi onlara qoşub
Uğurlar dilədim "Uğurlu yol"a.

..."Xələfli, səfərin mübarək olsun,
Bir vaxt döyüşlərə atılan oğlan!
Torpağın naminə, elin xətrinə,
Səngərdən-səngərə atılan oğlan!

Bilirsən, o illər qalıb arxada,
Düşmənin öz əli öz başındadı.
Diz çökdü önündə ər oğulların,
Sonuncu ümidi göz yaşındadı.

Əlbəttə, indi onların heç birisi uşaq deyil, gənclik dövrünü çoxdan ötürüblər, yaşadıqları həyatın çoxlu ağrı-acıları ilə qarşılaşıblar. Bu da bir həyat akademiyasıdır. İndi artıq onlar öz talelərindən çox Vətən haqqında düşünürlər. Onlar üçün mənəvi dəyər millətin təbiətini qorumaqdır. Doğrudur, son vaxtlar zaman sürətlə irəlilərdi. Qarağbağ müharibəsi özüün ikinci tarixi mərhələsində cahanşümul bir mərhələ ilə başa çatdı. Erməni vandalları kifayət qədər cəzanlandılar. Separatçılaq tarixi Azərbaycan yurdlarından birdəfəlik qovuldular. Heç söz ola bilməz ki, bu böyük uğurun özü iki şair dostun, iki sənətkarın yaradıcılığına əsaslı təsir göstərməsin. Zəfərdən sonrakı həyat aydınlığa çıxışın başlanğıcıdır. Şübhəsiz, bunun özü də bu və ya digər şəkildə Rafiqdə ciddi təəssürat yaradıb. Təsadüfi deyil ki, şair dostunun həyatını od içindən keçməklə tərənnüm edir:

İllərin ağrısı unudulmaylb,
Acı xatirələr yaddaşındadı.
Hələ çəkilməyib barıt qoxusu,
Güllə yaraları yurd daşındadı.

İndi yeni ruhda, o sevgidəsən,
Nə olsun, yaş gəlib yaşının üstə.
Qəmli xatirələr qalıb arxada,
Zəfər bayrağı var başının üstə.

Göylərin alqışı, sevgisi sonsuz,
Bulaqlar, çeşmələr durulub axır.
Göylərə ucalan qoca palıdlar
Boylanıb sən gələn yollara baxır.

Sevgilər, sevinclər yol yoldaşındi,
Artıq quruyubdur sənin göz yaşın.
Vətənin yenilməz bayrağı kimi
Vətən qarşısında ucadır başın.

Göylərdə dolaşır şəhid ruhları,
Torpaqda kişilər - ərənlər yatır.
Vətənin hər yeri Vətəndi, qardaş,
Bizim də salamı o yerə çatdır.

Şair başımızın üstündə dalğalanan bayrağımıza elə "Zəfər bayrağı" adı verir. Onun düşüncəsinə görə və həm də haqlü düşüncəsinə görə Zəfər bayrağı təkcə yerimizin, yurdumuzun yox, elə göyümüzün də yaraşığıdır. Çünki bu bayrağın qüdrətini göylərimiz də alqışlayır.

*(Davamı 11-ci səhifədə)*

# ODDAN KEÇMƏYİN YANĞISI

*(Əvvəli 10-cu səhifədə)*

Rafiq Musa ruhu göylərlə əlləşən sənətkardır. Sanki özü göy üzünə qalxıb yağı tapdağından azad olmuş doğma Qarabağın hər yerini bir qartal baxışları ilə süzür. Məhz göy üzündən o, hər yeri gördüyü kimi, hər kəsi də bütün aydınlığı ilə görür. Elə oradanca dostuna üz tutub hamıya, hər kəsə salamını yetirrmək arzusunu bildirir. O, sevinir ki, indi həsrətlər arxada qalıb. İnsanlar bir qərinə həsrətini çəkdiyi torpaqlarına - yurdlarına qovuşublar. Heç şübhəsiz, şairin yenə tərənnüm obyektində dostu Ə.R.Xələflinin obrazı onun doğma Cəbrayılı ön sırada durur.

Şübhəsiz, oxucumuz unutmayıb, axı o, "Votsab" üstündən danışır. Elə ona görə də hər duyğulanmadan sonra dostunun təzə nə yazıb-nə yazmadığı ilə maraqlanır. Yazı, sənət hər bir insanın arzu və diləklərinin

-Bilirəm, dərd-sərin böyükdür, qağa,
Amma sevincin də hüdudu yoxdu.
Əzizdən-əzizdi Vətən sevgisi,
Bugünkü sevoncin qəmindən çoxdu.

Şair dostunun sevincinə şərik olur. Ancaq onu düşünjürən elə məsələlər var ki, bu, artıq tarixlə bağlıdır. Çünki bir vaxt dostu Cəbrayıldan ayrılanda çox gənc idi. Övladları da hələ yeniyetmə olmayan uşaqlar idi. Amma gör nə qədər vaxt keçib. İndi onun dostu özü də babadır. Özü ilə bir yerdə Cəbrayıla qayıdan övladları atadır, anadır. Şübhəsiz bu, zamanla bağlı məsələdir. Bu, erməni vandallarının tarixi cinayətlərinin nəticəsidir. Doğrudur, kimlərsə deyir ki, ötən vaxt xalqımızın taleyindən oğuorlanıb, itkiyə gedib. Amma mən belə düşünmürəm. Elə Rafiqin poeziyasından belə bir hiss, duyğu, sözlə oxucusuna təlqin edir ki, xalqımız savaş məktəbi keçdi. Yurd uğrunda vuruşmağın nə demək olduğunu gələcək nəsillərə bir dərs kimi yadigar qoydu. Bunun əhəmiyyətini unut-

Bir zaman şairin dediyi sözlər
Bizi Lökbatana çəkib apardı.

Əli Rza Xələfli görünməyirdi,
Bəlkə, dost-tanışın əlindən pıxıb?
Bəlkə, özgə işə qarışıb başı,
Bizi qarşılamaq yadından çıxıb.

Zal əmi hiss etdi narahatlığı,
- Dostluğun qədrini dost olan bilər.
Əli Rza bazarda dazarlıqdadi,
Yəqin ki, bir azdan qayıdıb gələr.

Əminin ürəyi necə yxaymiş,
Kövrəldi, sevincdən gözləri doldu.
Əli Rza Xələfli bazarlığında,
Bizi qarşılayan Zal əmi oldu.

Doğrudur, əsər boyu reallıqlar ön plandadır. Amma Rafiqin əsərini oxunaqlı edən daha bir amil var ki, bu da onun poetik təsvirlərində xatirələrə rəvac verməsi ilə bağlıdır.

R.Musa nə qədər bədii əsər yazsa da, reallığa güvənərək həyat həqiqətlərindən qeyd etdiyim kimi, uzaqlaşmır. O, bir insan kimi dostunun

Rəngarəng çiçəklər göz oxşayırdı,
Bağ-bağça nə yaman ətirlənmişdi.
Sərin kölgəsində dincələk deyə,
Yamyaşıl yarpaqlar çətirlənmişdi.

Ümumiyyətlə R.Musa təbiətlə bağlı məqamlarda istedadını tam üzə çıxara bilir, Onun üçün kölgəlik yaradan üzüm tənəyi də, çinar budağı da, adicə suyun şırıltısı da, gözlərinin önündə canlandırdığı çəmənlər də... hamısı təəssürat yaradır. O, sözü sevə-sevə, oxşaya-oxşaya misralara yığa bilir:

Sən kiçik quşlarda həvəsə bir bax,
Hər quşun öz səsi, öz nəğməsi var.
Qonub budağına tut ağacının
Gör necə həvəslə oxuyur onlar.

Hər kəs öz yerini tutub əyləşdi,
Süfrənin olmayır ögeyi-yadı.
Bizim içəridə nə işimiz var,
Bayırda özgədir süfrənin dadı.

Samovar qaynadı tələm-tələsik,
Nə soyuq su gərək, nə də sərinkeş.
İstidə özgədir çayın ləzzəti,
Süfrəyə çay gəldi, bir oldu on beş.

Gəldi göz önünə olub-keçənlər,
Yenidən dolaşdıq bərəni, bəndi.
Kimi söhbət açdı öz şəhərindən,
Kiminə dərd yükü olmuşdu kəndi.

ifadəçisidir. Elə ona görə də şairi daha çox öz dostunun yazdıqları maraqlandırır:

Şirindən şirindir Vətən torpağı,
Sən qalib, müzəffər Vətən övladı.
İçində əssə də payız küləyi,
Ömrünün baharı Cəbrayıldadı".

Axşamın xeyirli olsun dostumun
Oxuyum, bir görüm, nə yazır daha?!
Şirin arzuları çin olan şair,
Hansı arzularla gedir sabaha?!

Hər sözün öz yeri, öz dəyəri var,
Sözlər var, hökm edir dünya varına.
Səhər göndərsə də, indi baxıram
Şair Xələflinin məktublarına.

Yazır ki, çıxmışıq, köç yolundayıq,
Doğma yurd yerləri gözləyir bizi.
Ayların axarı üzü yazadı,
Yəqin ki, haçansa görərik sizi.

Yazır, mən köçkünəm, sən qaçqın, qağa,
Vətən həsrətidir dərdi-sərimiz.
Qalmışıq illərin yolayrıcında,
Amma üzülməyib ümidlərimiz.

Həm ilham pərisinin qüdrətiylə sözə rəvac verir, həm də xəyalının qanadlarında göyə yüksəlir. Dostunun harda olduğunu görmək, onun üz cizgilərində ifadə olunan yaşantılarını müşahidə etmək... bax elə budur şairi yazı üzərində saxlayan, onun ruhunu, poetik ovqatda kökləyən duybular:

Görünmür sevincin həddi-hüdudu,
Bütün varlığımla deyirəm sənə.
Burdayam - yurd yeri Cəbrayıldayam,
Elə bil, dnüyanı veriblər mənə.

Həsrətin dərd yükü ağırdan-ağır,
Bilirdik, bu yükü daşımaq nədir.
Sən demə, illəri yola vermişik,
Bax, indi bilirik yaşamaq nədir.

Yazır ki, dönürük yurd yerimizə,
Bir az aranlıyam, bir az dağlıyam.
Sındırdıq düşmənin qol-qanadını,
Bu Vətən bizimdir - Qarabağlıyam.

Yazır ki, ayrılıq çətinmiş, qardaş,
O xoşbəxt günlərin göynəyir yeri.
Atalı-analı düşmüşdük köçkün,
Atasız-anasız dönürük geri.

maq, tarixi dəyərini yaddan çıxarmaq olmaz:

Oğullar atadır, gəlinlər ana,
Gərək hər ağrıya biz gətirək tab.
Mənə elə gəlir, çoxdan çatıbdır,
Sənin məktubuna yazdığım cavab.

Yazdığı sözlərin dəyəri yoxdur,
O, mənə qaytardı dünya varını.
Özüm də bilmədən sinəmə sıxdım
"Mobil"ə yazılan məktublarını.

Uğurlu yolların sonu görünmür,
Bizim qayıdış da qalmaz gümana.
Siz təzə ünvana tələsin, dostlar,
Mən isə qayıdım köhnə "ünvana"...

Aradan il ötüb, zaman keçibdir,
Sevincim boldu-bol, var dərdi-sərim.
İstədim onunla hal-əhval tutam,
Gördü uzaqdadır xatirələrim.

Unutmaq çətindir ötən günləri,
Damaqdan getməyib süfrənin dadı.
Bu günün sevinci şirindən-şirin,
Xəyalım dünənin havasındadı.

Şair tez-tez dünənlə bu günü müqayisə edir. Dünən yaşanmış iztirablar, bu gün yanan sevinclər. Nə qədər təzadlı olsa da bir ahəng yaradır. Axı bu yaşantılar əslində, bizim xalqımızın öz həyatıdır, Vətən tarixinin hisslərlə, duyğularda yaşayan səhifələridir. Ona görə də R.Musa bu səhifələri tarixin ən dəyərli məqamları kimi tərənnüm edir. Bu yaşantıların hər bir anı tarixçilər tərəfindən faktlarla öyrənilməlidir. Şairlər isə bu yaşantıları emosional hissləri, duyğuları ilə yazıya gətirməlidirlər. Əslində elə, həyatın da dəyəri, mən düşünürəm ki, gələcək nəsillərə çatdırılmalı olan həqiqətlərdir.

R.Musa realist şairdir. O, nə qədər romantik xəyallarla göylərə qalxsa da, bir anda gəcələyə uçsa da, daha bir an sonra keçmişə qayıtsa da, həyati həqiqətləri təsvir edir. O, həyat həqiqətlərindən heç vaxt uzaqlaşmır:

Ötüb-keçənləri xatırlamaq xoş,
Gəldi xəyalıma Əli Rza qağa.
Bizi qonaqlığa dəvət edəndə
Kimsə "yox" demədi bu qonaqlığa.

Verilən vədənin zamanı gəldi,
Hər kəs bu xoş günü yadına saldı.

həssaslığını, mənsub olduğu ailənin ənənələrini qorumaq uğrunda mücadiləsini yüksək qiymətləndirir və bu zaman özü də vəfalı bir dost kimi çıxış edir. Zənnimcə, insanlığa dəyər verən əsas keyfiyyətlərdən bir də dostluqda sədaqətli olmaqdır. Dostluğu uca tutmaq, onu qorumaq hissi insani dəyərlərə sədaqətlə bağlıdır. Bu mənada R.Musa mənim düşüncəmə görə müasir Azərbaycan insanının ənənəvi dost obrazını yaşadan bir simadır.

...Xatirələr çözülür, yaşantılar sözə gəlir, duyğular qanadlanır, bir vaxt dostları Lökbatanda başına yığıb məclis quran Ə.R.Xələflinin atası Zal kişi də bu məclisin başında olardı. Böyük sənətkarımız Zəlimxan Yaqubun sözü-söhbəti dinlənilərdi. Onun saz ifaları, ağır, həzin kədər dolu ifaları necə yaddan çıxa bilər? Təəssüf ki, indi onların heç biri indi yoxdur. Amma xatirələrində Lökbatanlı duyğuları yaddaşda canlandıran R.Musa var. Həmin məclisləri göz önünə gətirmək heç də çətin deyil. Rafiq Musanın əsərlərində tez-tez adı çəkilən tələbəlik dövrünün dostları həmin məclisin şahidləri olublar. İ.Qəribli, İ.Həkimli, S.İbrahimov, Mir Cəlal, A.Əsədov, Tormoz Hüseyn... və başqaları bu gün də Rafiqin həmin xatirələr əsasında yazdığı poetik lövhələri maraqla izləməkdədirlər. Bəlkə də insan həyatının ən dəyərli səhifələri elə budur: Sıxdı əlimizi qabarlı əllə:

-Qonağı olanın nə dərdi-səri!
Qonağı bayırda saxlamaq olmaz,
Siz Allah, buyurun, keçin içəri.

--Zal əmi, gün gələr bir xeyir işdə
İçəri keçərik, Allah Kərimdi.
Maşallah, pis deyil həyət-bacanız,
Ağacın kölgəsi daha sərindi.

Hərə bir tərəfdən dil-ağız etdi,
Razılıq elədi bir neçə kərə.
Zal əmi diqqətlə dinləyib bizi,
Bizim sözümüzü salmadı yerə.

Sanki yüz ölçülüb, bir biçilibdi,
Bu bağın sahmanı necə gözəldi.
Bağçanın nə sərin havası varmış,
Çiçəklər ətrini əsirgəmədi.

Aradan keçməmiş bir o qədər də,
Əsəbi bir halda o gəlib çıxdı.
-Niyə gecikdiniz? - deyən Xələfli
Günahı bizlərin üstünə yıxdı.

Mübahisələr, fikir qarşılaşmaları... bütün bunların heç biri dostlar arasında psixoloyi problem yaratmır. Şair üçün əslidə bir-birinə səmimi və doğma münasibət onun yaradıcılığına təkan verir, daha ilhamlı duyğularla yazmağa həvəsləndirir.

R.Musa sözün gücünü bilən sənətkardır. Özü də maraqlıdır ki, heç bir misrasında sözü gücə salmır. Sanki sözü öz axarına buraxır. Söz isə ona sədaqətli olaraq istəyinə uyğun yer tutur. Ona görə də Rafiq Musanı oxumaq xüsusi bədii zövq verir oxucuya:

Bilirik, səhvimiz olanda hərdən,
Deyib səhvimizi üzə qırmızı.
Yaxşı işimizə tərif söylədi,
Bu gün malaladı günahımızı.

Əli Rza Xələfli, haqlısan, qardaş,
Hər şeyi necə var, elə bilmişik.
Vaxtında zamana dəyər vermədik,
İlləri xərcləyib "küllənən"mişik.

Demirik hər işə biganəyik biz,
Həyatın nəbzini tutanlar da var.
Yıxılan kəslərə əl tutanımız,
Hərdən ortalığı qatanlar da var.

Var olsun Zal əmi el-obasıyla,
Bağın keşiyində dayanıb sayıq.
Biz bu gün uzağıq dedi-qodudan,
Bu bağın sehrində, səfasındayıq.

Üzürük qoynunda xatirələrin,
Dərələr keçirik, dağlar aşırıq.
Hamıya xoş gəlir hər kəsin sözü,
Məclis uzandıqca doğmalaşırıq.

Rafiq Musa bu günün xatırlamasında 25 il əvvəlki məclisi təsadüfi xatırlamır. Çünki o məclisdə Azərbaycan xalqının ən üstün dəyərlərini özündə ehtiva edən obrazı yaddaşına gətirir. Bu, "Zal əmi" obrazıdır. Şairin bu həssas yanaşması xalqın tarixi dəyərlərinə hörmət və ehtiramdan irəli gəlir.

*(Davamı var)*